AzJESS
Azerbaijanian Journal of Economics and Social Studies

*Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalı*
*www.azjess.com*
Sayı/Number 4, 2015

# KƏND TƏSƏRRÜFATINDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN GENİŞLƏNDİRİLMƏSİNDƏ İSTEHSALÇILARIN GƏLİRLƏRİNİN ARTIRILMASININ VƏ SOSİAL İNKİŞAFININ ROLU

**Rəfail Hüseyn oğlu Niftəliyev**
*AzETKTİ və Tİ-nin dissertantı*

**Xülasə**

Məqalədə əhalinin gəlirləri, məhsul istehsalçılarının fəaliyyətlərinin tənzimlənməsi və kəndin sosial–iqtisadi inkişafının təmin edilməsi məsəslələri araşdırılaraq öyrənilmişdir. Əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırlması üçün kəndin infrastrukturunun inkişaf etdirilməsi və kənddə məşğulluq səviyyəsinin yüksəldilməsinin zəruriliyi məqalədə öz əksini tapmışıdır.

**Açar sözlər:**kənd təsərrüfatı, məhsul, istehsal, gəlir, istehlak, xərc.

Azərbaycan iqtisadiyyatının sosial-iqtisadi inkişaf meylləri və onun iqtisadi və sosial potensialının genişlənməsi və xüsusiyyətləri müasir şəraitdə ərazi idarəetmənin və sosial-iqtisadi amillərin səmərəli istifadəsini zəruriləşdirir. Müstəqillik şəraitində əldə olunan idarəetmə üstünlükləri və iqtisadi şəraitlər, hər bir sahə və ərazinin iqtisadi rolunu qiymətləndirməklə, onun daha intensiv istifadə yollarını, mexanizmlərini və müvafiq qərarların qəbulunu tələb edir. Bu baxımdan Azərbaycan Respublikasında kəndin sosial-iqtisadi inkişaf problemlərini formalaşdırmaq və onun regional aspektlərini həll etməklə region-respublika əlaqələrini təkmilləşdirmək vəzifələri mühüm rol oynayır. Hazırda regionda işsizlik səviyyəsinin azaldılmasında, kəndin sosial-iqtisadi inkişafında dövlətin rolunun daha da aktivləşdirilməsinə mühüm ehtiyac vardır. Bu ehtiyacın müvəffəqiyyətllə qarşılanması üçün ilk növbədə regionlarda daxili və xarici bazarda kifayət qədər rəqabət aparmaq iqtidarında olan mütərəqqi texnologiyaya malik müəssisələrin yaradılmasına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi tələb olunur.

Araşdırmalar göstərir ki, son illərdə ölkədə sahibkarlıq fəaliyyətinin inkişafı sahəsində əldə olunmuş irəliləyişlər bazar iqtisadi sisteminin sahibkarlıq fəaliyyətinin genişlənməsi üçün yaratdığı əlverişli şərait baxımından xeyli azdır. Qeyd etmək lazımdır ki, sahibkarlıq fəaliyyətinin qarşısında duran əsas məqsəd istehsal ounan

məhsulun satışının və ya digər sahibkarlıq və dövlət subyektlərinə göstərilən xidmətlərin həcminin daha da genişləndirilməsi və əldə edilən gəlirlərin artırılmasıdır. Araşdırmalar göstərir ki, ölkəmizdə orta və kiçik sahibkarlıq subyektlərində olan çatışmamazlıqlar innovativ inkişafın tələblərə tam cavab verməməsi və iqtisadi mexanizmlərdən düzgün istifadə edilməməsi istehsal və xidmət zamanı əlavə xərclərlə müşayət olunduğundan daxili və xarici bazarda rəqabətqabiliyyəliliyin təmin olunmasına zəmanət vermir. Belə vəziyyətdə ayrı-ayrı məhsullar üzrə iqtisadi artım təmin olunsada əksər hallarda məhsul istehsalçıları satışdan daxil olan vəsaitlə xərclərini ödəyə bilmirlər, təsərrüfat fəaliyyətini zərərlə və ya fəaliyyəti genişləndirmək üçün tələb olunandan daha az mənfəətlə başa vurur. Nəticədə nəinki, məhsul istehsalı həcmini artırmaqda, hətta sahibkarlıq fəaliyyətlərini genişləndirməkdə maraqlı olmurlar.

Kəndin öyrənilməsi, onun iqtisadi və sosial rolu daha çox kənd təsərrüfatı və ərzaq istehlakı, ərzaq təhlükəsizliyi və iqtisadi artımın kənd təsərrüfatı sektorunda formalaşma mənbələri ilə ifadə ounur. İqtisadi artımın kənd təsərrüfatı bölməsi, ümumi daxili məhsulun həcmi və onun strukturu ilə formalaşır. İqtisadi artımın əsas göstəriciləri olan ümumi daxili məhsulun bir nəfərə düşən səviyyəsi respublikanın iqtisadi və sosial inkişafını müəyyənləşdirir. Bu zaman maddi və şəxsi amillər, kənd təsərrüfatında istehsal həcmini və onun məhsullar üzrə strukturunu formalaşdırır.

Kəndin sosial-iqtisadi xüsusiyyətləri kənd təsərrüfatı və təbii sərvətlərin xüsusiyyətləri ilə formalaşır. Ona görə də kəndin sosial-iqtisadi potensialını qiymətləndirmək üçün bir sıra amilləri qruplaşdırmaq olar. Nəzəri cəhətdən bu amillərə aşağıdakılar daxildir:

- təbii-coğrafi mühit və onların istifadəsinin səmərəli variantları;
- kənd əhalisinin təii artımı, onun sosial-demoqrafik və əhalinin məşuğlluq səviyyəsi;
- kənd təsərrüfatı və kənddə təsərrüfat fəaliyyətinin iqtisadi formaları, təşkilatı quruluşu və həmin təsərrüfatların məhsuldarlığı və bazar tələbinə uyğun məhsul və xidmətin həcmi, onun xüsisi çəkisi;
- kənd əhalisinin gəlirlərinin formalaşma mənbələri onun sahə quruluşu, forma və xərc strukturu;
- əhalinin istehlakının formalaşma mənbələri, aparıcı istehlak məhsullarının istehsalı, idxal və ixracatı;
- kənd əhalisinin istehlak səviyyəsinin və istehlak strukturunun formalaşmasında kənd təsərrüfatının rolu və kəndin maliyyə resursları;
- kəndin bazar tələb və təklifinin formalaşmasında rolu. Kəndin ayrı-ayrı sahələrinin və tələbatın ödənilməsinin konkret üsulları;
- kəndin sosial-iqtisadi inkişafının maliyyə, kredit potensialının təminatı və bu amillərin kənd əhalisinin sosial-iqtisadi inkişafına təsiri;
- dövlətin kəndin sosial-iqtisadi inkişafı üçün proteksionist siyasəti və əsas mexanizmlərinin spesifik xüsusiyyətləri.

Bu istiqamətlər kəndin bir sıra iqtisadi və sosial problemlərini və onların tədqiqinin metodoloji xüsusiyyətlərini yaradır. Kəndin sosial-iqtisadi inkişafı özünü

əsasən əhalinin gəlirlərinin və xərclərinin müqayisəsində yaranmış fərqin artıb-azalmasında göstərir. Əhalinin gəlirləri və xərclərinin müqayisəsi cədvəl 1-də verilmişdir.

*Cədvəl 1*

Əhalinin gəlirləri və xərclərinin müqayisəsi (mln manat)

| Göstəricilər | 2005 | 2011 | 2012 | 2013 | 2014 | 2014-cü ildə 2011-ci ilə nisbətən %-lə |
|---|---|---|---|---|---|---|
| **Gəlirlər –cəmi** | 8063,6 | 30524,6 | 34769,5 | 37562,0 | 39360,7 | +28,9 |
| Ilkin gəlirlər | 6394,2 | 26861,9 | 31181,4 | 33830,0 | 35276,8 | +31,3 |
| **O cümlədən:** | | | | | | |
| Işçilərə əmək ödənişləri | 2954,8 | 8020,0 | 9224,9 | 10077,0 | 10721,9 | +33,6 |
| Sahibkarlıq fəaliyyətindən gəlirlər | 3432,6 | 18543,9 | 21140,8 | 22801,5 | 23595,8 | +27,2 |
| Mülkiyyətdən gələn gəlirlər | 6,8 | 298,0 | 815,7 | 951,5 | 959,1 | 3,2 dəfə |
| Alınmış cari transferlər | 1669,4 | 3662,7 | 3588,1 | 3732,0 | 4083,9 | +11,5 |
| **Xərclər – cəmi** | **6508,7** | **22184,0** | **24654,0** | **28021,2** | **31268,2** | **+41,0** |
| Son istehlak xərcləri | 5532,6 | 19216,0 | 21389,9 | 24150,0 | 27069,6 | +41,0 |
| Ödənilən cari transferlər | 976,1 | 2619,5 | 2872,7 | 3370,5 | 3435,9 | +31,2 |
| Mülkiyyətdən ödənilən gəlirlər | - | 348,5 | 301,4 | 500,7 | 762,7 | 2,2 dəfə |
| **Qənaətlər** | **1554,9** | **8340,6** | **10205,5** | **9540,8** | **8092,5** | **-3,0** |
| Qeyri maliyyə aktivlərinin yığımı. | 477,8 | 1165,3 | 1593,6 | 1921,9 | 2244,2 | +92,6 |
| Maliyyə aktivlərinin yığımı | 1077,1 | 7175,3 | 8611,9 | 7618,9 | 5848,3 | -18,5 |

Cədvəl DSK-nin məlumatları əsasında tərtib edilmişdir. “Azərbaycanın statistik göstəriciləri” Bakı-2015. Səh.144

Statistik məlumatların təhlili göstərir ki, əhalinin gəlirləri 2011-ci ilə nisbətən 28,9%, xərcləri isə 41,0% artmışdır. Xərclər gəlirlərlə müqayisədə 12,5 çox artmışdır. Əhalinin qruplar və ya təbəqələr üzrə müqayisə etdikdə isə əhalinin əsas hissəsinin gəlirlərinin ümumi gəlirdən aşağı olduğu müəyyən edilmişdir. Bu əsasən büdcə təşkilatlarında özünü daha qabarıq göstərir. Bu isə əhalinin alıcılıq qabiliyyətinə mənfi təsir edir.

Bir nəfərə düşən əsas növ heyvandarlıq məhsullarının istehsalı (kq) verilmiş rəqəmlərin təhlilindən göründüyü kimi bir nəfərə düşən əsas növ heyvandarlıq məhsullarından (kq-la) 2008-ci ilə nisbətən 2014-cü ildə ət istehsalı kəsilmiş çəkidə 14,8%, süd 18,3%, yumurta 6,3% və balıq 2,3 dəfə artmışdır. Lakin buna baxmayaraq bir nəfərə düşən əsas növ heyvandarlıq məhsulları istehsalı tələbata tam cavab vermir. Eyni zamanda əhalinin alıcılıq qabiliyyətinin aşağı olması bu məhsullardan istehlak normalarına uyğun səviyyədə istehlak etməsinə mənfi təsir edir.

Kənd əhalisinin ərzaq bazarında tələbatının ödənilməsi mənbəyi ev təsərrüfatı təşkil edir. Ona görə də bəzi məhsullarının istehlakının müəyyən hissəsi natural istehlak

hesabına baş verir. Ona görə də kənd təsərrüfatı məhsullarının istehlak sferası, onun ərazisindən kənarlarda emal və istehlak məqsədi üçün öz bazarını tapır. Kəndin və dövlətin təsərrüfat obyektləri arasında təsərrüfat əlaqələri və istehsal dövriyyəsi, bölgü və yenidən bölgü lokal və qlobal maraqların uzlaşması və onların arasında ən əlverişli mexanizmlərin yaradılması ilə baş verir.

Qeyd edək ki, kənd əhalisinin həyat səviyyəsinin formalaşması, onun əhalisinin gəlir səviyyəsi, istehlakı və həmçinin yığımının dinamikası və tələbatın özünün inkişaf səviyyəsi və onun ödənilməsi dərəcəsi ilə ölçülür. Kənd əhalisinin həyat səviyyəsi ümumi iqtisadi artım və adam başına düşən gəlirlərlə ölçülür. Adam başına düşən ümumi daxili məhsul dünya ölkələri ilə müqayisədə yoxsulluq meyarı kimi qəbul edilir. Əlbəttə, bu sintetik göstərici olmaqla özünün daxili strukturu və istifadə istiqamətlərinə görə keyfiyyət göstəriciləri kəsb edir.

Əhalinin həyat səviyyəsi ədəbiyyatlarda müxtəlif meyarlar və göstəricilərlə ifadə olunur. Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi strateji və lokal planlaşma obyekti olaraq, kəndin iqtisadi quruluşu və sosial transfertlərlə ifadə olunur. Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsinin əsas istiqaməti olaraq gəlirlərin artırılması və istehlak üçün zəruri məhsullara çəkilən xərclərin azaldılması, məhsul və səhiyyə xidmətindən istifadənin səmərəli təşkili ilə ifadə olunur. Kənd əhalisinin gəlirlərində daha çox onun əhalisinin məşğulluq sahəsi və hər bir nəfərin iqtisadi fəallığı, işləyənlərlə işləməyənlərin sayı, adam başına düşən «ailə yükü» ilə müəyyənləşir. Kənd əhalisinin sosial tərkibi onun maddi rifaha görə qütbləşmə səviyyəsini müəyyənləşdirir. Qütbləşmə adambaşına görə gəlirlərlə və uyğun olaraq istehlakla müəyyənləşir. Gəlir və istehlakın differensiyası qütbləşmənin gəlir və istehlak sferasında olan amilləri ilə müəyyənləşir. Gəlirlərə təsir edən amillər istehsal və xidmətin və onların məhsullarının qiyməti ilə ölçülür.

Kənddə əhalinin gəlirlərin və istehlakın səviyyəsinə görə differensiallaşmasında amillərin təsiri eyni istiqamətdə baş verir. Amma gəlirlərin differensiallaşması fərdi fəallıqdan və əldə olunan gəlirlərdən asılıdır. 2010-2014-cü illərdə əhalinin hər nəfərinə düşən gəlirlərinin alıcılıq qabiliyyəti cədvəl 2-də verilmişdir.

Əhalinin gəlir səviyyəsinə görə bölgüsü dinamikası, onun alıcılıq qabiliyyətini və həmçinin istehlakında ərzaq və qeyri-ərzaq məhsullarının strukturunu müəyyənləşdirir. Statistik məlumatların təhlili göstərir ki, əhalinin gəlirləri artdıqca onların alıcılıq qabiliyyəti də artır. Onu da qeyd edək ki, istehlak xərcləri üzrə müqayisə etdikdə yuxarıda qeyd edilən məhsullar üzrə alıcılıq qabiliyyəti kəskin şəkildə aşağı düşür. Əhalinin 7,8%-nin gəliri 250-300 manat, 6,0%-nin gəliri isə 300 manatdan yuxarı həcmdə olmuşdur. Bu isə onu göstərir ki, əhalinin həar nəfərinə düşən alıcılıq qabiliyyəti müəyyən edildiyindən aşağı səviyyədədir. Bu özünü əhalinin kreit borcu sayında və problemli kreditlərin sayının artmasında da özünü göstərir.

Kəndin əhalisinin sosial təminat səviyyəsi, kəndin özündə bir sıra sosial-iqtisadi problemlərin həllinə səbəb olur. Ona görə də sosialyönlü kənd və kənd təsərrüfatının inkişaf strategiyası artıq bazar tipli inkişaf modelinin amili kimi formalaşır və dərinləşir.

*Cədvəl 2*

Əhalinin hər nəfərinə düşən gəlirlərinin alıcılıq qabiliyyəti (kiloqramla)

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2014-cü ildə 2010-cu ilə nisbətən %-lə |
|---|---|---|---|---|---|---|
| Buğda unu | 233 | 279 | 298 | 311 | 383 | +64,4 |
| Buğda çörəyi | 262 | 266 | 294 | 316 | 338 | +29,0 |
| Düyü | 92 | 106 | 122 | 130 | 141 | +53,3 |
| Makaron məlumatları | 99 | 126 | 145 | 147 | 167 | +68,7 |
| Kartof | 229 | 244 | 281 | 286 | 288 | +25,8 |
| Kələm | 262 | 263 | 294 | 298 | 338 | 29,0 |
| Xiyar | 153 | 168 | 193 | 195 | 230 | +50,3 |
| Pomidor | 94 | 121 | 139 | 141 | 185 | +96,8 |
| Meyvə və giləmeyvə | 93 | 95 | 110 | 111 | 121 | 30,1 |
| Mal əti | 25 | 27 | 27 | 28 | 30 | +20,0 |
| Qoyun əti | 22 | 24 | 24 | 25 | 26 | +18,2 |
| Toyuq əti | 40 | 41 | 47 | 50 | 58 | +45,0 |
| Təzə balıq | 29 | 30 | 35 | 37 | 39 | +34,5 |
| Süd litr | 153 | 200 | 227 | 244 | 261 | +70,6 |
| Xama və qaymaq | 35 | 37 | 42 | 43 | 46 | +31,4 |
| Mal-qara yağı | 26 | 28 | 32 | 35 | 36 | +38,5 |
| Pendir | 35 | 42 | 48 | 48 | 51 | +45,7 |
| Yumurta, ədəd | 1030 | 1038 | 1091 | 1130 | 1278 | +24,1 |
| Qənd-şəkər tozu | 134 | 141 | 159 | 185 | 198 | +47,8 |
| Bitki yağı | 72 | 75 | 79 | 86 | 91 | +26,4 |
| Marqarin | 49 | 67 | 73 | 79 | 83 | +69,4 |

Cədvəl DSK-nin məlumatları əsasında tərtib edilmişdir. "Azərbaycanın statistik göstəriciləri" Bakı-2015. Səh.185.

Kəndin sosial inkişaf problemlərinin təsnifatı sistem halında təsvir olunur. Bu prioritetlərə aşağıdakılar daxildir:

- kənddə əhalinin məşğulluğunun təmin edilməsi və onların istehsal və bölgü mühitinin yaxşılaşması;
- kəndin əhalisinin pensiya təminatı, sosial müdafiə və müavinətlər sisteminin təkmilləşməsi;
- azyaşlı uşaqların tədris tərbiyə və idman tələbatının ödənilməsi üçün infrastruktur obyektlərinin əhalinin nominal tələbat səviyyəsinə görə genişlənməsi və onların müasir bazar tələbinə uyğun tənzimlənməsi;
- əhalinin sağlamlığı və ömür müddətinin uzaldılmasına təsir edən maddi rifah, infrastruktur şəraiti və bir sıra xidmət müəssisələrinin təmin olunmasına dəstək proqramları;
- kənd əhalisinin sərbəst vaxt və ev təsərrüfatında mənzil şəraiti, istirahət hüquqları və hərtərəfli inkişafı üçün kollektiv istehlak obyektlərinin və onların məhsulları və xidmətlərinin təşkil oluması.

Qeyd edilən məsələlərin öz həllini tapması kəndin sosial–qtisadi inkişafında və məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.

### İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. "Azərbaycanın statistik göstəriciləri" Bakı-2015. http://www.stat.gov.az
2. Əliyev K.Q. Aqrar sahədə sahibkarlığın inkişafının regional problemləri. Bakı, 2005.

### Роль увеличение доходов и социальное развитии производителей для расширение деятельность предпринимательство в сельском хозяйстве

Нифталиев Рафаел Гусейн оглу.

Резюме

В статье были изучены доходы населения, регулирования деятельности производителей, развитие социально-экономическое обеспечения села. Определены улучшение экономическое состояние население, развитие инфраструктуры и уровень занятости села.

**Ключевые слова:** сельское хозяйство, растениеводство, производство, доходы, потребление, расходы.

### The role of the increasing income and social development of producers for the expansion of business activities in agriculture

Rafail Niftaliyev
Ph.D student

Summary

Incomes of the population, regulation of agricultural producers' activities and the problems of socio-economic development of villages have been researched in the paper. Development of infrastructure and increase of employment level in the villages are referred as the key points.

**Keywords:** agriculture, product, production, income, consumption, cost.